## Atalar belə söyləyib...

* Haqq yandıran çırağı söndürmək olmaz...
* Vaxtını itirən - bəxtini itirər.
* Köhnə yurdun qədrini təzə yurdda bilərlər.
* İgid ilqarından dönməz, dəvə ovsarından ...
* Su daşı quma döndərər, arvad kişini muma.
* Sirr saxlamaq mərdlikdir.
*Çörəyi ver çörəkçiyə, birini də üstəlik.
* Toxun acdan nə xəbəri
* El yandıran şamı söndürmək olmaz...

## İnanclar

*Axşam güzgüyə baxmazlar.
*Atı satanda yüyən və yəhərini verməzlər.
*Qaranquş yuva quran həyətdə həmişə şadlıq olar.
*Dağdağan ağacını kəsmək xeyir verməz.
*Əldə qayçı oynadanda dava düşər.
*Səfərə çıxan adamın arxasınca su atarlar.

## Baməzə

Biri o birindən soruşurdu;

- Qıtlıq və bahalıqdır. Aclığın qarşısını almaq üçün tədbirin nədir?

Cavab verdi:

- Daha burda çətin nə var.
- Necə bəyəm?
- Səhər yeməyini tərgit, günortanı ləngit.

Tərəkəmə təəccüblə soruşdu:

-Bəs axşam?

- Şam yeməyi çatanda isə kəmərini bərkit. Elə bərkit ki, belini üzük qaşına döndərsin.

## Gülməcələr...

Raykom katibi yığıncaq çağırıb kolxoz sədrini işdən çıxardır və camaata üz tutub:

- Çox yazırdınız ki, bu canavarı necə göndəribsən elə də çıxart. Budur çıxardıb aparıram.

Özünü saxlamayan Əsgər kişi yerindən deyir:

- Canavarı çıxarıb aparmağın yaxşıdı. Bəs balaları?

Katib soruşur:

- Evi ki, şəhərdədir bu zalım oğlunun, haradadır onun balaları?

Əsgər kişi cəld cavab verir:

-Anbarda, qoyun fermasında, mal fermasında, elə bax bu idarədə.

***

Avtobusda şəhərə gedən kəndçiləri Əsgər kişiyə sataşmaq məqsədilə sürücüyə deyirlər ki, avtobusu onun üstə sürsün, görək nə deyəcək?

Sürücü:

- Ay dayı, yoldan aralı getsən, maşın az qalmışdı səni vursun.

Əsgər kişi hazırcavablığından qalmayıb deyir:

- Ayə, bəlkə elə yolun qırağıyla gedən heç dayın döy, bir beton dirəkdi. Gətirib özünü onamı vuracaqsan?

***

Kəndçiləri Əsgər kişini qıcıqlandırmaq üçün deyirlər:

- A kişi, elə özündən basıb- bağlayırsan ki, müharibədə nemesi belə qırdım, belə öldürdüm. Sənə inanmağımız gəlmir.

Əsgər kişi söz altında qalmayıb deyir: - Ayə, bir deyin görüm, hansı köpəyoğlu indiyəcən öldürdüyünü sürüyüb idarənin qabağına gətirib ki, mən də gətirəydim...

***

Raykom katibi Qaymaqlıda sovxozun bənd sahələrini yoxlayırmış. Su nasosunun yanına gələndə burada iki nəfər adam görür, onların kimliyini soruşur. Biri qayıdır ki, mən nasosda motorist işləyirəm. Əsgər kişi orada heyvan otarırmış. O da katibə deyir ki, mən də mətərist işləyirəm.

Katib idarə binasında sovxoz direktorunu məzəmmət edir ki, dövlətin pulunu havaya sovurmayın. O su nasosunda işləyən bir nəfər motoristi saxla, o birini işdən azad elə...



***

Sənəm qarı bir dəfə əri Çörəkçioğlu Məhəmməddən soruşur ki, cənnət, cəhənnəm deyirlər, o nə olan şeydir? Məhəmməd kişi arvadına cavab verir:

- Harada qadın tayfası yoxdursa ora cənnətdir, harada qadın tayfası varsa ora cəhənnəmdir.

***

Çörəkçioğlu Məhəmməd bağ-bağça salmağı çox xoşlayırdı. Onun bağında hər cür meyvə ağacı varıydı. O bağına söyüd ağacı əkəndə qonşusu bunu görüb soruşur: - Bu ki, barsız ağacdı, onu əkib neyləyirsən? Məhəmməd kişi deyir: - A qonşu, fikir eləmə, söyüd yan-yörəsindəki ağaclara baxıb bəlkə bar verdi...

***

Çörəkçioğlu Məhəmmədin hamilə gəlinlərindən birinin gecədən xeyli keçmiş ağrısı tutur. Arvadı Sənəm qarı əhvalatı ərinə xəbər verir. Məhəmməd kişi tələsik paltarını geyinib gəlininə baş çəkməyə gedir. Hamı gözləyir ki, qayınata həkimdən, mamaçadan birini çağırtdıracaq.

Çörəkçioğlu isə sancının içində qovrulan gəlinini tərs-tərs süzüb deyir: - A bala, allahın gündüzünü əlindən almışdılarmı ki, doğmağını gecəyə saxlayıbsan? Hələlik yıxıl yat, sabah doğarsan.

***

Kəndçilərindən biri Çörəkçioğlu Məhəmməddən soruşur ki, o nə vaxtsa rəhmətə getmiş atasının üzünü görəcəkmi? Məhəmməd kişi deyir: - Tələsmə, allah qoysa vaxtı gələndə görüşəcəksən. Kəndçisi qayıdır ki, nə vaxt, harada? Çörəkçioğlu Məhəmməd cavab verir: - O dünyada, qəbristanlıqda!

***

Çörəkçioğlu Məhəmmədin bir yaxın qohumu müharibədə yaralanıb kəndə qayıdıbmış. Hamı gedib onunla görüşür. Məhəmməd kişi də gedib qohumuna baş çəkir, onun necə yaralandığını soruşur. Qohumu nemesin çovutma gülləsinin gəlib onun qoluna dəydiyini söyləyir. Məhəmməd kişi gülüb deyir: - Ayə, sənin heç fəhmin-fərasətin yoxuymuş. Güllənin sənə sarı uçub gəldiyini görmədinmi, indi də səmtini dəyişib bir başqa cür duraydın?

***

Kəndçilərindən biri Çörəkçioğlu Məhəmmədlə görüşüb hal-əhvalat tutduqdan sonra deyir ki, təzə aldığı arvad bütün günü elə keçmiş ərini tərifləyir.

Məhəmməd kişi deyir: - Ayə, sən nə dilbilməz adamsan. O öz keçmiş ərini tərifləyəndə, sən də öz rəhmətlik arvadını tériflə.

***

Kəndçilərindən biri Çörəkçioğlu Məhəmməddən soruşur ki, görək o da nə vaxtsa kasıblığın daşını atıb varlanacaqmı?

Məhəmməd kişi deyir: - Tələsmə, bir az səbr elə, inşallah sən də varlanacaqsan. Həmən adam sevincək soruşur ki, görən nə vaxt? Çörəkçioğlu Məhəmməd cavab verir: - Dəvənin quyruğu uzanıb yerə çatanda.

***

Bir dəfə Çörəkçioğlu Məhəmməd dostugilə gedir. Evə girəndə görür ki, dostu yorğan-döşəkdə yatır. Məhəmməd kişi dostunun əhvalını soruşduqda dostu deyir: - Özümü pis hiss edirəm. Sağalacağıma gümanım yoxdur. Ürəyimə damıb ki, öləcəm. Çörəkçioğlu Məhəmməd dostuna deyir:

- Bilirsənmi, mənim dünyada əsas iki şeydən -bir xəstədən, bir də ölüdən xoşum gəlmir.

***

Uzun müddət kəndin qoyun sürüsünü otaran çoban Çörəkçioğluna deyir ki, o öləndən sonra, görən kəndin qoyunlarını kim otaracaqdır?

Məhəmməd kişi deyir: - Ay rəhmətliyin oğlu, gör nəyin dərdini çəkirsən. Sən ölməyində ol, qoyun otaran tapılar.

***

Çörəkçioğlu Məhəmmədə bir məclisdə sual verirlər ki, nəyə görə vaxtsız ölümlər olur, insanlardan bəziləri dünyasını cavankən dəyişir?

Məhəmməd kişi cavab verib deyir ki, bu hərənin özündən asılı olan şeydir. İnsanlar yaxalarını Əzrayıla tanıtmamalıdırlar. Əzrayıl tanıyandan sonra əl çəkən deyil. Sizi bilmirəm, mən özümə söz vermişəm, 100 il yaşayıb öləcəyəm.

***

Yayda kənddə havalar quraq keçirmiş. Yağış yağmırmış. Kəndin mollaları yığışıb Allaha dua etmək üçün Cüryəlli adlanan uca bir yerə çıxırlar.

Çörəkçioğlu Məhəmməd danışırdı ki, biz mollalar o qədər çığırışdıq, o qədər bağırışdıq ki, göyün üzündəki əl boyda bulud parçası da axırda yoxa çıxdı.

***

Kənddə havalar yaman quraq keçirmiş. Camaat Çörəkçioğlundan bunun səbəbini soruşduqda Məhəmməd kişi deyir: - Sovet hökuməti Laykanı göyə çıxarandan Allahın qəzəbinə gəlmişik. İt göydə ayı murdarlayıbdır. Ona görə də yağış yağmır.